

**Çəng - qədim arfatipli musiqi aləti kimi Azərbaycan musiqi mədəniyyətində əhəmiyyətli yer tutaraq zəngin tarixi keçmişə malikdir. Onun ilk olaraq yaranması, ümumiyyətlə, Azərbaycanın musiqi aləmində tutduğu yeri və rolu olduqca maraq doğurur.**

# ÇƏNG VƏ ONUN YARANMA TARİXİ

Çəng - öz xarici görünüşünə görə arfayabənzər dartımlı simli alətlər qrupuna aid edildiyindən yaranma səbəbi də eyni kökə söykənir desək yanılmarıq. Bəzi mülahizələrə görə çəng ovçu aləti olan ox və yaydan yaranmışdır.

Belə ki, qədim zamanlarda vəhşi heyvanları ovlamaq üçün yayı tarım çəkib oxu atan zaman onun titrəyişindən yaranan ahəngli musiqi səsi ibtidai insanın diqqətini özünə cəlb edir. Beləliklə, əsrlər keçdikcə təkamül nəticəsində inkişaf edən insan oxa bir neçə simlər əlavə edərək qədim simli musiqi alətini yaratmışdır.

Eramızdan əvvəllərə aid edilən, 6-9, 18-24, bəzən daha çox simdən ibarət olan müxtəlif çəng alətləri haqqında başqa ehtimala rast gəlinir. Belə ki, o vaxtlar sim əvəzinə heyvan bağırsağı, ipək saplar çəkilirdi və belə rəvayət olunur ki, şahin quşunun parçaladığı bir heyvanın bağırsaqları ağacın budaqlarına dolaşaraq oradan asılıb qalır.

Sonradan quruyub tarıma çəkilmiş bağırsaq külək əsdikcə titrəyərək müxtəlif musiqili səslər verməyə başlayır. Bu səsləri eşidən qədim insanlar ilk simli çalğı alətlərini icad edirlər. Əlbəttə, bu bir rəvayət olsa da, həqiqətə uyğunluq da var, çünki daima simli alətlər müxtəlif ağac növlərindən, simləri isə heyvan bağırsaqlarından hazırlanmışdır.

Müasir arfadan fərqli olan qədim arfanın müxtəlif növləri mövcud idi. Bunların arasında yayabənzər, üçbucaq, qövsvari, dövdbucaq və s. olmuşdur. Ən çox əldə tutulub ifa olunan arfatipli alətlərin simləri az, tarımı zəif, səslənməsi isə dolğun deyildi. Qədim çəng alətinin də səslənməsi əlbəttə arfayabənzər alətlərdən çox fərqli idi. Onun simləri iki qoşa ağac arasına keçirilirdi, sütun hissəsi olmadığı üçün güclü səsə malik deyildi. Amma bəzən simlər qoşa çəkilirdi ki, səsin gücü artırılsın. Çəng aləti əsasən oturaq şəkildə ifa olunaraq müxtəlif cür; əvvəllər mizrabla, lələklə, sonra isə barmaqla ifa olunub.

Arfatipli alətlər əsasən Qədim Şərqdə - Misir, İran, Babilistan, Assuriya, Fələstin, Mərkəzi və Orta Asiyada geniş yayılsa da, alimlər əldə edilən məlumatlardan belə qənaətə gəlirlər ki, onun ilk vətəni qədim Misir olmuşdur.

Azərbaycan ərazisində arfayabənzər çəng alətinin mövcud olması arxeoloji qazıntılar zamanı aşkar olunmuşdur. Belə ki, çəng alətinə aid ilk tapıntıları eramızın əvvəllərinə aid etmək olar. Azərbaycanın qədim şəhərlərindən biri olan, Qafqaz Albaniyasının mədəniyyət və ticarət mərkəzi sayılan Bərdənin Şatırlar kəndi ərazisində aparılan arxeoloji qazıntılar zamanı tapılan, e.ə. IV-III əsrlərə aid, üzərində çəng ifa edən qadın fiquru təsvir edilmiş saxsı qabın qalıqları buna əyani sübutdur.

Ümumiyyətlə, qədim Qafqaz Albaniyası ərazisində mövcud olan arfatipli lira alətindən də geniş istifadə olunub. Keçmiş Xanlar rayonu (indiki Göygöl) ərazisində eramızdan əvvəl IX-VIII əsrlərə aid lirayabənzər asma bəzək əşyası tapılmışdır. Bundan başqa Mingəçevir ərazisində də arxeoloji qazıntılar zamanı qəbirdən liranı xatırladan "muncuq"un tapılması bu fikri təsdiqləyir.

Arfatipli alət olan liranın qədim Albaniya ərazisinə necə gəlib çıxdığını demək çox çətindir,amma qədim Albaniya tranzit ölkə olduğu üçün ehtimal olunur ki, bu alət buraya ya qədim Sasani dövləti zamanı finikiyalılar tərəfindən, ya da Misir ərazisindən gətirilib.

Çəng alətinin yaranması haqqında ətraflı məlumatı əsasən orta əsrlərə aid olan yazılı və elmi mənbələrdən əldə etmək mümkündür. Bu dövrlərdə Azərbaycanda incəsənətin bir çox sahələri kimi musiqi sənəti də geniş inkişaf etmişdir. O dövrdə təxminən 28-31 simli, incə səsə, zərif görünüşə malik olan bu alət "gözəllik" mücəssəməsi kimi orta əsr saray musiqi məclislərində geniş istifadə olunurdu. Yazılı mənbələrdə və miniatür sənət nümunələrində çəng haqqında məlumat daha genişdir. Görkəmli Azərbaycan şairləri N.Gəncəvi (XII), M.Füzuli (XVI), İ.Nəsimi (XIV), Ə.Xəqaninin (XII) əsərlərindən, məşhur Azərbaycan musiqişünas alimləri S.Urməvi (XIII), Ə.Marağayi (XIV), M.M. Nəvvabın (XIX əsrin sonu, XX əsrin əvvəlləri) elmi traktatlarından bu alət haqqında geniş məlumat almaq olar.

Bundan başqa XV-XVI əsrlərdə Azərbaycanın Təbriz miniatür məktəbinin nümayəndələrinin (Sultan Məhəmməd, Ağa Mirək, Mirzə Əli Müzəffər, Mir Səid Əli) yaratdıqları sənət incilərində də çəng alətinin təsvirinə rast gəlmək olur.

XVII əsrdə Azərbaycanda çəngin bir neçə növü məlum idi; belə ki, bunların arasında 6 simli, üçbucaq formalı, çoxsimli və dördbucaqlı formada olanları da var idi.

Azərbaycanda əsasən saray musiqi məclislərində istifadə olunan zərif və incə səsli çəngin mahir ifaçıları haqqında məlumat çox azdır. Onların arasında II Şah İsmayılın dövründə yaşamış ustad musiqiçi Sultan Məhəmməd Çənginin adı çəkilir. O, həm saz, həm də mahir çəng ifaçısı kimi tanınmışdır. Əbəs yerə xalq ona "Çəngi" ləqəbini verməmişdir. Hətta görkəmli Azərbaycan şairəsi Məhsəti Gəncəvi də ud və çəng alətində ifa etməyi bacarırdı və onun rübailərində də bu alət haqqında məlumata rast gəlmək olar.

Çəng quruluşu etibarı ilə arfa tipli simliyaylı musiqi alətidir. Bu sözün "tutmaq", "yapışmaq" mənasını verdiyini güman etmək olar. Onun uzunsov və qövsşəkilli hissəsi çanaq adlanırdı. Çanağın açıq üzünə balıq və hətta ceyranın dərisi çəkilirdi, aşağı tərəfinə bərkidilmiş uzunsov hissə isə qol rolunu oynayırdı. Bu hissədə aşıqlar yerləşdirilirdi. Simlərin bir ucu çanaq hissədə dəri üzərində yerləşdirilmiş metal ilgəklərə, o biri ucları isə taxta aşıqlara bağlanırdı.

Təəssüflər olsun ki, bu alətdən XVII əsrin ikinci yarısına qədər istifadə olunmuşdur.

Hal-hazırda Azərbaycanda qədim musiqi

alətlərimizin bərpası ilə məşğul olan, sənətşünaslıq doktoru, musiqişünas Məcnun Kərimovun yeni nəfəs veridiyi çəng alətinin ümumi hündürlüyü 930 mm, çanağının hündürlüyü 850 mm, qolunun uzunluğu 665 mm-dir. Onun bağırsaqdan və ipək sapdan hazırlanmış 30 simi vardır.

Müasir çəngin çanağı tut ağacından, onun üzü isə balıq dərisindən hazırlanır. Düz bucaq altında gövdəyə birləşdirilən qolu isə qoz ağacındandır. Qolun hər iki yan hissəsində aşıqlar yerləşir. Diapazonu kiçik oktavanın "fa#" səsindən ikinci oktavanın "si" səsinə qədərdir. Xromatik sıraya malik 30 səsdən ibarətdir.

Çəng musiqi aləti Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində eksponat kimi nümayiş olunur. Bundan başqa 1996-cı ildə yaradılmış və Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin nəzdində fəaliyyət göstərən qədim musiqi alətlərindən ibarət ansamblın tərkibində də çəng aləti ifa olunur.

Bir musiqiçi kimi istərdim ki, Azərbaycan xalqının milli-mənəvi sərvətinə çevrilən qədim musiqi alətlərimizlə yanaşı çəngin istifadəsi təkcə muzey eksponatı çərçivəsində qalmasın.

Yaxşı olardı ki, müasir milli musiqi mədəniyyətimizin inkişafında çəng alətinin imkanlarından geniş şəkildə istifadə edilsin, müxtəlif xalq çalğı alətləri ansambllarının tərkibinə qatılsın. Bunun üçün düşünürəm ki, çəng alətinin musiqi ocaqlarında tədris olunması və ifaçı kadrların professional səviyyədə yetişdirilməsi vacibdir.

● **Səməngül İBRAHİMOVA,**
*Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının dissertantı*

## Ədəbiyyat

1.Абдуллаева С. Народные музыкальные инструменты Азербайджана, Б. 1979, с.14
2.Hüseynova Q. Arfa və onun Azərbaycan professional musiqisinin inkişafında yeri və rolu, B. "Adiloğlu", 2005, s. 6-16
3.Дулова В. Искусство игры на арфе М., "Советский композитор" с.13
4.Васина-Гроссманн В. Книга для любителей музыки, Музгиз., М., 1962, с. 88-89
5.Kərimov M. "Orta əsr Azərbaycan musiqi alətləri" (tarixi, orqanoloji tədqiqat), avtoreferat, B. 2009, s 21
6.Алиева У. Некоторые заметки о музыкальной культуре "язычкеской" Албании (IV в. до н.э. - IV в.н.э.) Б. с. 34-36
7.Язвинская Е. Арфа, М., 1968

## SUMMARY

Article Ibragimova Samangyul on the topic: "Chang and history of its origin" is devoted to the study of one of the Azerbaijani national antique musical instruments. Creating Chang, family harp stringed instruments, the ways of its development and dissemination, in contrast to similar types of tools, gives an idea of opportunities and executive functions.

## РЕЗЮМЕ

Статья Ибрагимовой Самангюль на тему: "Чанг и история его возникновения" посвящена исследованию одной из азербайджанских национальных старинных музыкальных инструментов. Создание чанг, из семейства арфаобразных струнных инструментов, пути его развития и распространения, в отличие от аналогичных типов инструмента, дает представление о его широких возможностях и исполнительских функций.

**Təqdim etdi:** Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi kafedrası
**Elmi rəhbər:** Sənətşünaslıq doktoru, professor Səadət Abdullayeva